Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Tarix yazan akademik – Teymur Bünyadov

**Teymur Bünyadovun 90 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2018**

**Tərtibçilər:** **Aynurə Əliyeva**
**Şəhla Əliyeva**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar Mədəniyyət işçisi*

**Tarix yazan akademik – Teymur Bünyadov:** Teymur Bünyadovun 90 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait /Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed. A. Əliyeva; ixt.red. və burax.məsul Ş. Qəmbərova; red. K. Ağazadə. – Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2018.-24 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2018**

## Tərtibçidən

Dünyada elə şəxsiyyətlər var ki, onlar ömürlərini millətin yolunda şam kimi əridir, hələ sağ ikən əbədilik qazanır. Tarixdə belə şəxsiyyətlər hələ sağlıqlarında ikən özlərinə abidə ucalda bilirlər. Qədim və şərəfli tarixi olan Azərbaycan xalqının bütün əsrlərdə fəxr ediləsi, ləyaqətli və qeyrətli oğulları olmuşdur. Tariximiz, mədəniyyətimiz, elmimiz, dilimiz, bu oğulların səyi, zəhməti, cəsarəti, sayəsində daim şöhrətlənmiş, sayılıb-seçilmişdir. Belə qeyrətli və əvəzsiz azərbaycanlı müdriklərdən biri də həmişə qürur duyduğumuz, iftixarımız, xalqımızın görkəmli oğlu akademik Teymur Bünyadovdur. Akademik Teymur Bünyadovun ömür yoluna və çoxşaxəli elmi-ictimai fəaliyyətinə nəzər saldıqda bu böyük insanla fəxr etməmək mümkün deyil. Nəcib, xeyirxah, elmli və işıqlı insanların həyatı çətin və əziyyətli olsa da, bu həyat yolu qürur və iftixarla dolu olur. Həyatın mənasını yaşanan illərin sayında deyil, onun necə yaşanmasındadır. Gözəl, mənalı olduğu qədər dolu-dolu yaradıcılıq uğurları ilə zəngin həyat sürən görkəmli akademik Teymur Bünyadovun bu il 90 yaşı tamam olur. Bu münasibətlə bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə *"Dünya dahilərsiz yaşaya bilmir"* adlanır və şairin həyat və yaradıcılığından bəhs edir. II hissə isə *"Alim və yazıçı ömrü"* adlanır və yaradıcılığından bəhs edən tədbirlərdən söhbət açılır.

## Yaradıcılığı

1928-ci il yanvarın 20-də Qazax rayonunun II Şıxlı kəndində anadan olan Azərbaycan arxeologiya və etnoqrafiya elmlərinin inkişafına sanballı töhfələr vermiş AMEA-nın həqiqi üzvü, tarix elmləri doktoru, professor, əməkdar elm xadimi, böyük alim və ictimai xadim, görkəmli ziyalı Teymur Əmiraslan oğlu Bünyadov orta məktəbi qızıl medalla bitirib, Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində təhsil almışdır. Təhsilini başa vurduqdan sonra SSRİ Elmlər Akademiyasının Maddi Mədəniyyət Tarixi İnstitutunun aspiranturasına daxil olmuş, dünya şöhrətli Qafqazşünas alim Y.İ.Krupnovun rəhbərliyi altında namizədlik dissertasiyası müdafiə etmiş, tarix elmləri namizədi alimlik dərəcəsi almışdır.

1955-ci ilin may ayında T. Bünyadov Azərbaycan EA Tarix İnstitutunda elmi fəaliyyətə başlamışdır. Həmin ildən onun bütün həyatı və elmi fəaliyyəti Azərbaycan EA-nın Tarix, 1993-cü ildən isə Arxeologiya və Etnoqrafiya İnstitutu ilə bağlıdır.

T.Bünyadov 1968-ci ildə “Azərbaycanın qədim və Orta əsrlər dövrü təsərrüffat həyatı” mövzusunda doktorluq dissertasiyası müdafiə edərək respublikada arxeologiya və etnoqrafiya elmləri sahəsində ilk tarix elmləri doktoru alimlik dərəcəsi almış, 1970-ci ildə professor elmi adına layiq görülmüşdür. O, 1989-cu ildə Azərbaycan EA-nın müxbir üzvü, 2001-ci ildə AMEA-nın həqiqi üzvü seçilmişdir.

1960-cı ildə T.Bünyadovun “Azərbaycan arxeologiyası oçerkləri” adlı kitabı nəşr edildi. Bu əsərdə Azərbaycan xalqının dünyanın ən qədim və mədəni xalqlarından biri olduğu, onun məskunlaşdığı ərazinin isə zəngin və təbii muzey kimi formalaşdığı sübuta yetirilib. Əsərdə Azərbaycanın ən qədim dövrdən XV əsrə qədərki tarixi işıqlandırılır. 1975-ci ildə isə o, “Əsrlərdən gələn səslər” əsərində xalqımızın musiqi mədəniyyəti irsini ilk dəfə tarixi-etnoqrafik baxımdan qələmə almışdır.

Akademikin fəaliyyəti daha çox Azərbaycanın arxeologiya və etnoqrafiya elmi ilə bağlıdır. Teymur Bünyadov 29 monoqrafiyanın, 1000-ə yaxın məqalənin, o cümlədən xarici ölkələrdə (Rusiya, İran, Türkiyə, Ukrayna, Norveç və s.) nəşr olunmuş əsərlərin müəllifidir. Onun rəhbərliyi altında 2007-ci ildə ilk dəfə böyük tirajla "Azərbaycan etnoqrafiyası" üçcildliyi nəşr edilmiş və respublikamızın elmi ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilmişdir. Onun rəhbərliyi altında ümummilli lider Heydər Əliyevin anadan olmasının 90 illiyinə həsr olunmuş "Qəbələnin tarixi", "Qəbələ folkloru" və "Qəbələnin etnoqrafiyası" adlı üçcildliyi çapa hazırlanmış, rus və ingilis dillərinə tərcümə edilmişdir.

Akademik Teymur Bünyadovun bir sıra beynəlxalq elmi konfranslarda, o cümlədən 1960-cı ildə Moskvada şərqşünasların XXV Beynəlxalq konqresində, 1964-cü ildə antropologiya və etnoqrafiya elmləri üzrə VII Beynəlxalq konqresdə, 1971-ci ildə Tiflisdə arxeoloq və etnoqrafların ümumittifaq sessiyasında, 1990-cı ildə İstanbulda birinci Millətlərarası Azərbaycan Türk dərnəkləri qurultayında, 2004-cü ildə Moskvada məşhur Qafqazşünas alim Y.İ.Krupnovun 100 illiyinə həsr edilmiş elmi sessiyada, 2007-ci ildə Parisdə "Azərbaycanın xalça sənəti" adlı beynəlxalq konfransdakı çıxışları böyük maraqla qarşılanmışdır.

T.Bünyadovun yaradıcılıq fəaliyyətinin digər bir istiqaməti də bədii yaradıcılıqdır. Keçən əsrin 70-ci illərinin sonlarından başlayaraq bir-birinin ardınca yazdığı "Ana Kürüm", "Qızıl qaya", "Mərd qalalar, sərt qayalar", "Zirvəqala" və başqa əsərləri elmi yaradıcılığının bir növ davamı hesab oluna bilər. Həmin əsərlərdə müəllifin vətəndaşlıq mövqeyi, doğma vətəninə, onun qurub-yaratmaq eşqi ilə yaşayan zəhmətkeş insanlarına məhəbbəti qələmə alınmışdır.

Azərbaycan mətbuatında müəllifin çoxsaylı hekayələri çap olunmuş, 1991-ci ildə "Göz yaşları" romanı yüksək tirajla geniş oxucu auditoriyasına təqdim edilmişdir. Müəllifin "Xan çinar

kölgəsində", "Anam birdi, vətən tək", "Başı çalmalı dağlar" adlı üççildlik bayatılar kitabı oxucuların böyük rəğbətini qazanmışdır.

Teymur Bünyadov elmi və bədii yaradıcılıqla yanaşı, pedaqoji sahədə də 50 ildən artıq fəaliyyət göstərmişdir. O, uzun illər Bakı Dövlət Universitetində, N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetində, Bakı Slavyan Universitetində Azərbaycan tarixi, Qədim dünya tarixi və Arxeologiya fənlərindən dərs demişdir. Öz elmi məktəbini yaratmış xalqşünas alimin gənc kadrların hazırlanmasında da gərgin əməyi olmuşdur. Teymur Bünyadov öz elmi məktəbini yaratmış alimlərdəndir. Onun rəhbərliyi ilə 7 elmlər doktoru, 25-dən çox aspirant və dissertant alimlik zirvəsinə yüksəlmişlər.

Azərbaycan etnoqrafiya elminin və mənəvi dəyərlərimizin təbliğində və geniş yayılmasında Teymur Bünyadovun radio və televiziyada təşkil etdiyi verilişlər də təqdirəlayiqdir. T.Bünyadov iki ildən çox Azərbaycan Dövlət Televiziyasında böyük maraqla izlənən "Əsrlərdən gələn səslər" adlı verilişin təşkilatçısı və aparıcısı olmuşdur. "Kölgələr sürünü" bədii filminin ekran həyatı qazanmasında elmi məsləhətçi kimi T.Bünyadovun xidməti böyükdür. Dağlıq Qarabağda baş verən hadisələr zamanı görkəmli alim gənclərə vətənpərvərlik, döyüş ruhu aşılamaq məqsədilə xalqımızın qəhrəmanlıq tarixindən bəhs edən "Qız var oğuldan qeyrətli", "Cavanşir", "Atropat", "Babək", "Şəmsəddin Eldəniz" və s. bu kimi elmi-populyar kitabçalar nəşr etdirmiş, məqalələr yazmış, radio və televiziyada çıxış etmiş, müxtəlif illərdə Goranboy, Ağstafa, Qazax, Bərdə, Ağdam rayonlarında düşmənlə üzbəüz mövqelərdə olmuşdur.

Teymur Bünyadov respublikanın ictimai həyatında da fəal iştirak edir. 1995-ci ildə I çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. O, həmin müddətdə Milli Məclisin elm və təhsil məsələləri daimi komissiyasının sədri olmuş, eyni zamanda Azərbaycan-İrlandiya parlamentlərarası komissiyasının sədri kimi də fəaliyyət göstərmişdir. Sonralar

ictimai fəaliyyətini davam etdirən akademik T. Bünyadov ümummilli lider Heydər Əliyevin və ölkə Prezidenti İlham Əliyevin prezident seçkilərində vəkili olmuşdur. T. Bünyadov 1994-cü ildən Yeni Azərbaycan Partiyasının üzvüdür. T. Bünyadov AMEA Humanitar və İctimai Elmlər bölməsinin akademik-katibinin müavini, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında özəl təhsil müəssisələrinin fəaliyyətini tənzimləmək məqsədilə yaradılan Dövlət Ali Ekspert Komissiyasının, Türkiyə-Azərbaycan Millətlərarası Komissiyasının və Respublika Ziyalılar Cəmiyyətinin üzvü olmuşdur.

Hazırda akademik Teymur Bünyadov Azərbaycan Respublikası Milli Məclisi yanında Toponimika komissiyasının sədr müavini, Qafqaz Müsəlmanları İdarəsi nəzdində yaradılmış Dini-Elmi Şuranın, Azərbaycan Yazıçılar Birliyi və Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Arxeologiya" və "Etnoqrafiya" ixtisasları üzrə dissertasiyaların müdafiəsi şurasının sədri, respublika elmi tədqiqatların tərkibi və əlaqələndirilməsi şurasının Tarix üzrə Problem Şurasının üzvü, "AMEA-nın Xəbərləri", "İpək yolu", "Qarapapaqlar", "Tarix və onun problemləri", "Təkamül", "Müasir mədəniyyətşünaslıq" jurnallarının redaksiya heyətinin üzvü kimi fəaliyyət göstərir.

T.Bünyadovun səmərəli elmi, elmi-pedaqoji və ictimai fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş, 2005-ci ildə "Şöhrət" ordeni ilə təltif olunmuş, 2008-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Akademik Teymur Bünyadov Azərbaycanın müstəqilliyini, dövlət və dövlətçiliyini hər şeydən uca tutan elm fədaisidir. Olduqca ədalətli insandır, onda müdriklik, yüksək ziyalılıq keyfiyyəti vardır. Teymur Bünyadov Azərbaycan etnoqrafiya elminin banilərindən biri, tələbkar elm təşkilatçısı, zəngin

mənəviyyatlı, geniş dünyagörüşü ilə ad-san qazanan nurlu şəxsiyyətlərimizdəndir.

Böyük insan Teymur Bünyadovun anadan olmasının 90 illik yubileyi ilə əlaqədar olaraq, kitabxanada bir sıra tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, rəsm və şeir müsabiqəsi, icmal, ədəbi-bədii gecə keçirilə bilər. T.Bünyadovun yaradıcılığını gənc nəslə və oxuculara tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi də təşkil oluna bilər. Sərgidə onun müxtəlif illərdə çəkilmiş fotostendi, kitabları ilə yanaşı digər müəlliflərin onun haqqında yazdığı kitablar, araşdırmalar, ona ithaf edilən şeirlər, kəlamlar və dövri mətbuatda yer alan məqalələr öz yerini almaqdadır. Sərgiyə müxtəlif başlıqlar verilə bilər: "Arxeologiya və etnoqrafiya elmimizin ağsaqqalı", "Əməkdar elm xadimi", "Tarix yazan akademik", "Dünya dahilərsiz yaşaya bilmir", "Elmimizin şah budağı Teymur Bünyadov", "Alim və yazıçı ömrü", "Milli dəyərlər haqqında", "Xalqın xalqşünas oğlu", "Elm və təhsil fədaisi", "İşıqlı insan Teymur Bünyadov", "Akademik həyatı" və s. başlıqlar verilə bilər.

# Kitab sərgisi


















Teymur Bünyadovun 90 illik yubileyi ilə əlaqədar olaraq, keçirilən maraqlı tədbirlərdən biri də *“Teymur Bünyadovun gözü ilə Azərbaycan etnoqrafiyası”* adlı konfransdır. Bu məqsədlə kitabxanaçı bir neçə ali məktəblərlə əməkdaşlıq edir. O, ali məktəb tələbələrini və oxucuları kitabxanaya cəlb etməklə akademik Teymur Bünyadovun gördüyü işlər və alimin kitabları ilə tanış edir. Kitabxanaya abunə olan tələbə və oxucular akademikin gördüyü işlərlə yaxından tanış olurlar. Daha sonra kitabxanaçı sözü gedən tədbir üçün müəyyən olunmuş tarixdə oxucuları kitabxanaya dəvət edir. Konfransa bir neçə qonaq, eləcə də akademik Teymur Bünyadovun özü iştirak edir. İlk olaraq kitabxanaçı akademikin həyat və yaradıcılığı haqqında oxucuları məlumatlandırır.

*Kitabxanaçı:* “Alimin qələminin mürəkkəbi şəhidin qanından üstündür”. Hər dəfə Peyğəmbərimizin (s.) bu təsirli kəlamı yadıma düşəndə qeyri-ixtiyari olaraq şəxsiyyətinə və elminə böyük ehtiram bəslədiyimiz çox hörmətli akademik Teymur Bünyadovun o nurlu çöhrəsi gözlərimiz önünə gəlməyə bilməz. Bəli, Teymur müəllim sözün həqiqi mənasında, ömrünü bütünlüklə elmə, yaradıcılığa həsr etmiş fədakar alimdir. Onun həyat və yaradıcılığı olduqca maraqlı və çoxşaxəlidir. Əsərləri isə öyrədicidir. Məhsuldar əməyin bəhrəsi olan “Azərbaycan etnoqrafiyası” III cildli kitabı da bu kitablardandır. “Azərbaycan etnoqrafiyası”nın birinci cildində “Azərbaycanın təbii coğrafi şəraiti, çoxəsirlik tarixi, əkinçilik və maldarlıq mədəniyyəti, onun əhalinin sosial-iqtisadi həyatında rolu, həmçinin xalqımızın qədim məşğuliyyət sahəsindən olan ovçuluq, balıqçılıq və arıçılığın keçdiyi inkişaf mərhələləri öyrənilir. Kitabda Azərbaycan xalqının qədim sənət sahələrindən dulusçuluq, daşişləmə, ağacişləmə, misgərlik, dadbağlıq, xalçaçılıq və s. geniş tədqiq olunmuşdur.

*Kitabxanaçının çıxışından sonra məruzəçilər bir-bir çıxış edirlər.*

*I məruzəçi:* Azərbaycan etnoqrafik baxımdan dünyanın ən zəngin, çoxcəhətli və maraqlı guşələrindən biridir. Xalqımız minilliklər boyu Qafqaz və Qədim Şərq xalqları ilə iqtisadi və mədəni əlaqədə olmuşdur. Yaranan bu qarşılıqlı təmasdan xalqımız çox şey əxz etmiş və faydalanmışdır. Xalqımız da öz növbəsində həmin xalqların tükənməz təsərrüfat həyatına, maddi və mənəvi mədəniyyətinə çox şeylər bəxş etmiş, onu daha da zənginləşdirmişdir. Etnoqrafiya yunan sözü olub, "etnos" xalq, "qrafis" öyrənmək, təsvir etmək mənasını daşıyır. Etnoqrafiya etnologiya kimi də ədəbiyyatda geniş işlənir. Deməli, etnologiya xalq haqqında elm deməkdir.
*II məruzəçi:* Etnoqrafiya elminin əsas vəzifəsi xalqı öyrənməklə tarix yazmaq, onu daha da zənginləşdirmək, əhatəli etməkdir. Arxeologiya yerin qatlarındakı mədəni təbəqələrdə müxtəlif dövrlərə aid zəngin və qiymətli materiallar aşkar edir, onun xronologiyasını verir. Etnoqrafiya isə bu maddi-mədəniyyət qalıqlarının bərpasına yardımçı olur, lazımi köməklik göstərir. Azərbaycanda yaşayan ən qədim insanların tarixi 2 milyon ilə qədərdir. Ona görə də, bu cilddə hər hansı sahənin və məsələnin işıqlandırmasında zəngin arxeoloji materiallar və bu sahədə aparılan araşdırmaların mühüm nəticələri nəzərə alınmışdır. Azərbaycan xalqının mənşəyinin və təkamülə çatmasının öyrənilməsində antropologiya elminin rolu son dərəcə böyükdür. Ona görə də, bu üçcildlikdə bu problemə yeri gəldikcə müraciət edilir. Əsərin birinci cildi ilə bağlı kənd təsərrüfat elmlərinin məlumat və müddəalarından daha geniş şəkildə istifadə edilmişdir. Sənətkarlıq sahələri ilə əlaqədar məsələlərin şərhində incəsənət sahələrində də müraciət edilmişdir.
*III məruzəçi:* Azərbaycan xalqının etnoqrafiyası onun tarixi qədər zəngin və qədimdir. Bu çoxsahəli zəngin irsi hərtərəfli araşdırmadan, onun tarixini də yüksək elmi səviyyədə tədqiq etmək qeyri-mümkündür. Heç şübhəsiz, "Azərbaycan etnoqrafiyası"nın nəşr edilməsi çoxcildlik Azərbaycan tarixi,

ədəbiyyatı, folkloru, memarlıq və incəsənət tarixi, dil tarixi, habelə xalq təsərrüfatı tarixinin yazılmasına xeyli kömək edəcək, həmin əsərin daha da dolğunlaşmasına və zənginləşməsinə imkan yaradacaqdır. Uzun illərin və gərgin əməyin məhsulu olan Azərbaycan etnoqrafiyası bu şəkildə etnoqraflarımızın tərəfindən ilk dəfə qələmə alınır. Üç cilddən ibarət olan bu ciddi araşdırmada demək olar ki, etnoqrafiya elminin əhatə etdiyi bütün məsələlərinin hamısı yetərincə öz əksini tapmışdır. Cildin müzakirəsilə əlaqədar öz mülahizə və təkliflərini verən alimlərə, informasiya-məlumat çatdıranlara dərin minnətdarlığımızı bildiririk. Əsərin nəşrə hazırlanmasında T.Kərimovun, T.Quluzadənin, N.Vahabovanın, T.Qasımovanın yaxından köməyini, illüstrativ materialların çəkilməsi və tərtibində rəssamlardan S.Hüseynovanın, B.Muradovanın və F.Cavadovanın əməyini xüsusi qeyd etmək istərdik.
*IV məruzəçi:* "Azərbaycan etnoqrafiyası" kitabının ikinci cildi isə Azərbaycan etnoqrafiyasının mühüm tərkib hissəsi olan maddi mədəniyyət və ailə məişəti məsələlərinə həsr edilmişdir. Cilddə xalqımızın çoxəsirlik tarixə malik yaşayış məskənləri və yaşayış evləri, geyim və bəzəkləri, yeməkləri və içkiləri, nəqliyyat vasitələri və s. kimi maddi mədəniyyət sahələri geniş və əhatəli şəkildə öz əksini tapmışdır. Kitabda həmçinin ailə, nikah, toy, uşaqların tərbiyəsi və dəfn mərasimi məsələləri də işıqlandırılır.
*V məruzəçi:* "Azərbaycan etnoqrafiyası" kitabının üçüncü cildi isə Azərbaycan etnoqrafiyasının mühüm tərkib hissəsi olan maddi mədəniyyət və ailə məişəti məsələlərinə həsr edilmişdir. Cilddə xalqımızın çoxəsirlik tarixə malik xalq bayramları, qarşılıqlı yardım formaları, ağsaqqallıq və ağbirçəklik adətləri, qonaqpərvərlik məsələləri şəhr olunur. Eyni zamanda, əsərdə çoxsahəli musiqi dünyası, elm və təhsil, ədəbiyyat, xalq təqvimi və xalq təbabəti, oyun və əyləncələr, inamlar, dini görüşlər və digər sahələr işıqlanır. Dərin məzmunu, əhəmiyyətliliyi ilə seçilən "Azərbaycan etnoqrafiyası" kitabının üçüncü cildi ilk

dəfədir ki, qələmə alınır. Əsərdə çoxsaylı dəyərli mənbələr, xarici və yerli səyyahların qeydlərindən, arxeologiya və tarix elminin qeydlərindən, muzey kolleksiyalarından, ədəbiyyat, folklor, musiqi, tətbiqi-sənət, sənət memarlıq və s. elm sahələrinə həsr olunmuş araşdırmalardan və bu sahəyə dair dövri mətbuatda çıxan yazılardan geniş istifadə olunmuşdur.

Akademik Teymur Bünyadovun yaradıcılığını oxuculara tanıtmaq və qələmini sevdirmək üçün kitabxanada keçiriləcək maraqlı tədbirlərdən biri də sual-cavab gecəsidir. *"Aslanın erkəyi, dişisi olmaz"* adlı kitab müzakirəsi Teymur Bünyadovun *"... Qız var oğuldan qeyrətli"* adlı kitabının əsasında keçirilir. Kitabxanaçı əvvəlcədən məktəblərlə əlaqə saxlayaraq oxucuları kitabxanaya cəlb edir. Şagirdlərə akademikin bir çox kitabı ilə yanaşı, sözü gedən kitabı təqdim edilir. Şagirdlər kitabı oxuyurlar və iştirakçı qismində tədbirə hazırlaşırlar. Əvvəlcədən təyin olunmuş tədbirin vaxtı gəlib çatır. İştirakçılar və qonaqlar kitabxanın oxu zalına toplaşırlar. Kitabxanaçı hər kəsi salamladıqdan sonra akademik və sözü gedən kitab haqqında maraqlı söhbətə başlayır.

*Kitabxanaçı:* Tarixçi-etnoqraf alim, akademik Teymur Bünyadovun "...Qız var oğuldan qeyrətli" kitabı tarixi öyrənənlər üçün bir töhfədir. Alimin digər sanballı kitablarında olduğu kimi bu kitabında da tarixi dövrləri, tarixi şəxsiyyətləri əks etdirən maraqlı və yeni faktlarla zəngin məlumatlar var. Hər bir oxucu buradan özünə lazım olan məlumatları əldə edə bilər. Tarixdə özünə qəhrəmanlıq səhifəsi yazmış Azərbaycan qadınlarının əksi bu kitabda təcəssüm edilmişdir. Teymur Bünyadovun fikincə, "qadınlıq ilahi qüvvə, ulu varlıq, alilik, adilik, yaradan, yaşadan, qoruyan varlıqdır". Qadın eyni zamanda "bəşərə zinnət, insanlığa şöhrətdir, ucalıq, ülvilik timsalıdır. Gözlərə işıq, qəlblərə yaraşıqdır". Bu ideya baxımından çıxış edən akademik Azərbaycan tarixində özünə əbədi şöhrət məbədi ucalmış tarixi şəxsiyyətlər – qadınlar haqqında yığcam, ancaq kifayət qədər məlumatlı bir əsər kimi

yaratmışdır. Onu istərsə yaşlı nəsil, istərsə də gənc nəsil, məktəblilər heç bir çətinlik çəkmədən bir nəfəsə oxuyub yaddaşlarına həkk edəcəkdir. Çünki əsər çətin ibarələrdən, qaranlıq mətləblərdən uzaq, anlaşıqlı bir dildə yazılıb. Lap Teymur müəllimə xas olan bayatı dilində, xalq dilində...

İnsan ruhunun müqəddəs yazısı olan kitab bir nəslin o biri nəslə mənəvi vəsiyyətidir. Bu kitabın qəhrəmanları müxtəlif həyat yollarına malik olsalar da onları bir amal, bir məqsəd birləşdirir. Doğma Azərbaycanımıza layiq bir övlad olmaq xalqımızın əsrlərdən bəri qoruyub saxladığı milli-mənəvi dəyərlərinə sadiq olmaq. İnanırıq ki, əsl vətəndaşlıq mövqeyi ilə seçilən, yaşayan və xalqına ləyaqətlə xidmət göstərən ziyalı şəxsiyyətlərin həyatından bəhs edən, gələcək nəsillərə mənəvi yadigar olan bu kitab oxucular tərəfindən maraqla qarşılanacaqdır.

*Kitabxanaçı fikirlərinin bitirdikdən sonra sorğu vərəqələrini iştirakçılara paylayır. Suallar aşağıdakılardan ibarətdir:*

**1.** Kitabda şanlı tariximizə iz qoymuş hansı qəhrəman qadınların adları verilmişdir?

*Cavab:* Bu kitabda ulu nənəmiz, Massaget hökmdarı Tomrisdən üzü bu yana Kitabi Dədə Qorqud dastanındakı Dirsə xanın xatını, pəhləvan və igid Banuçiçəkdən, Selcan xatundan, Möminə xatundan, tarixdə ilk diplomatik azərbaycanlı qadın adını qazanan, uzaqgörən, müdrik Sara xatundan, I Şah İsmayılın "könül həmdəmi" Taclı xanımdan, Koroğlunun Nigarından, Qaçaq Nəbinin Həcərindən, Qanlı 20 Yanvar şəhidi İlhamın sədaqətli Fərizəsindən dolğun şəkildə söhbət açılır.

**2.** Kitabda qadın hansı sözlərlə tərənnüm edilib, nə ilə eyniləşdirilib?

*Cavab:* Qadın ilahi qüvvə, ulu varlıqdı, adilik, alilik timsalıdı. El anasıdı, dünyalar dünyasıdı. Gözlərə işıq, qəlblərə yaraşıqdı. Ana vətəndi, vətən də ana...

**3.** Kitabda vətənə aid bayatılardan misallar göstərə bilərsinizmi?

*Cavab:* Keçərlər,
Zirvə aşar, keçərlər.
Vətən üçün, el üçün
Şirin candan keçərlər.
***
Vətəndi,
Yurd-yuvadı, vətəndi
Bu ana torpaq ki, var
Anamızdı, Vətəndi-deyiblər...
***
Qan damar,
Qan tökülər, qan damar.
Yurduma göz dikənin
Gözlərindən qan damar.

**4.** Kitabda adları çəkilən qadınların vətənpərvərliyi, əzm və mübarizliyi ilə birgə daha hansı bir müqəddəs peşəsi ilə ön plandadır?

*Cavab:* Kitabda bir çox məqamda, xüsusən ilk orta əsrlərdə kamilləşən, minilliklərdən xəbər verən və dünyada şöhrətlənən, xalqımızın, türk dünyamızın əvəzsiz incisi, əzəmətli abidəsi, vətənpərvərlik çələngi, analarımızın etibar-ilqar ucalığı sədaqət səmimiyyət rəmzi "Kitabi Dədə Qorqud" dastanında ana-övlad məhəbbəti, analıq hissi qabarıq göstərilməkdədir. Ana tanrıdan sonrakı yaradandır. Ana dar günün dayağı, gen günün sevinc paylayanı, şadlıq yayanıdır. Bəli, anaya layiq oğul, oğula layiq ana. Süddən gələn, sümüyə yeriyən, iliyə işləyən hikmət. Ana müdrikliyi igid çəngavərliyində, igid qeyrəti ana ismətində. Ana dünyamızın, mübarizəli tariximizin qızıl səhifələrinin bəzəyidir.

Dolan gəz,
Ərzi-gürzi dolan gəz.
Vətən birdi, anam tək,
Dur başına dolan gəz.

**5.** Əsərdə yenilməzlik qalası olan türk qızlarımızın daha hansı ülvi hissindən söhbət açılır? Misallar göstərin.
*Cavab:* Kitabda mübariz el qızlarının ülvi hisslərindən, saf məhəbbətindən söhbət açılır. Məsələn: Nigar əsilli-nəsilli tayfanın isməti gözünün işığı, əsl türk qızı idi. O, türk oğlu Azərbaycan igidi Koroğluya ürək açdı, könül verdi. El üçün vuruşan, xalq qəhrəmanı Qaçaq Nəbiyə gözəl və əzmli el qızı Həcər könül verdi. Həcər sevgisi qədər qoçaqlığı ilə də dillər əzbəri oldu.

...Mahalda deyirlər, qaçaqdır Nəbi,
Həcəri özündən qoçaqdır Nəbi.

**6.** Əsrdə qadınlar istər ömür gün yoldaşları ilə, istər ərsəyə gətirdiyi övladlarının yanında gözlərini yummadan döyüş meydanlarına atılırdılar. Bu Azərbaycan qadınının əzmi cəsarəti və igidliyi idi. Kitabda Azərbaycan qadını daha hansı meydanda öz şücaətini göstərir? Misallar göstəririn.
*Cavab:* Döyüşə girmək, qılınc oynatmaq, meydanda şimşək tək çaxmaq qəhrəmanlıqdır. Lakin dəhşətlərin qarşısını almaq, qanı su ilə yumaq daha böyük hünərpərvərlik, uzaqgörənlik və şücaətdir. Uzun Həsənin anası kimi qoca Şərqin ilk diplomat qadınlarından birincisi kimi məşhurlaşan Sara xatun müdriklik rəmzi olan meydanda, siyasət meydanında idi.
*Kitabxanaçı:* Analarımız gözləri ilə od götürüblər, ayaqları ilə od ayaqlayıblar. Sinələrindən yara alan analarımızın qanı südlərinə qarışıb, torpağa tökülüb. Müqəddəslik onlarla daha da müqəddəsləşib. “Daş var qızıldan qiymətli, qız var oğuldan qeyrətli” hünərini yaradıblar. Tarixi sınaqdan çıxan “Aslanın erkəyi dişisi olmaz” hikmətini yaşayıblar... Qulağıma səslər gəlir ana səsi, ana səsi, vətən səsi gözəl köçər, gözəllik qalar bu dünyada. Ana ölər, analar yaşar bu dünyada. Ana vətənləşər, vətən analaşar. Bu dünyada...

Gəl, ana yurdumun, qızı, gəlini,
İndi hünər vaxtı, qeyrət dəmidir.
Sən gəl əsirgəmə kömək əlini,

Hər sözün, söhbətin can məlhəmidir.
Adın şərəflidir sənin, ey qadın!
Dahilər anası çağrılır adın.

Kitabxanada akademik Teymur Bünyadovdan bəhs edən görüş gecəsi də təşkil etmək olar. Alimin yubileyinə həsr olunmuş *"Dünya dahilərsiz yaşaya bilmir"* adlı gecəyə akademikin özü ilə yanaşı, görkəmli elm adamları, alim və akademiklər və s. ixtisas sahibləri, oxucular və ali məktəb tələbələri də dəvət olunurlar. Qonaqlar akademikin şəkilləri, müxtəlif adda əsər başlıqları və hikmətli sözləri ilə çərçivələnmiş, bəzədilmiş zalda əyləşirlər. Gecənin qonaqlarına öncə Teymur Bünyadov haqqında hazırlanmış slayd təqdim edilir. Gecəni açıq elan etmək üçün aparıcılar səhnəyə yaxınlaşırlar.

*I aparıcı:* Salam, dəyərli qonaqlar, bu təbiət ətirli, torpaq hərarətli gecədə xoş gördük sizləri. Gəlin bu gün Azərbaycan etnoqrafiyasını sırf görkəmli şəxsiyyət, dahi insan Teymur Bünyadov qəlbi ilə sevək və bu gün akademikin gözüylə bir daha, bir daha məftun olaq. Axı varlığının ilk günündən təbiət insanın evi, yaşamaq üçün qida mənbəyi olmuşdur. İllər keçdikcə, insanlar təbiətin isti, soyuğunu dərk etdikləri kimi, onun flora və faunasından istifadənin səmərəli yollarını da müəyyən etmiş, özlərinə lazım olan nemətləri qorumuş nəsildən-nəslə ötürmüşlər.

*II aparıcı:* Teymur Bünyadov özünün dəst-xətti, yaradıcılıq üslubu, elmi istiqaməti, şəxsi mövqeyi, nüfuzu ilə seçilən alimdir. O, bütöv bir şəxsiyyətdir. Onun cildlərə sığmayan ömür kitabının hər səhifəsi ləyaqətlə, şərəflə yazılıb. ...Akademikin istedadı kimi maraqları da çoxcəhətlidir.

*I aparıcı:* Tale Teymur Bünyadova gəncliyində acılar yaşatmışdır. Yeniyetmə yaşındaykən anası dünyasını dəyişmiş, bir il sonra atası Əmiraslan Bünyadov 1937-ci ilin qara repressiya küləyinin qurbanı olmuşdur. Həyatın yollarına tək-tənha düşən Teymur Bünyadovun yeniyetməlik və erkən

gənclik illəri, ta orta məktəbi qızıl medalla bitirənə qədər inadkar bir yaşam mücadiləsində keçmişdir. "Göz yaşları" avtobioqrafik romanından oxuduğumuz kimi, doğmalarını itirməsi, məşəqqətlər, müharibənin özü ilə gətirdiyi məhrumiyyətlər onu sındıra bilməyib. Bu ağır mücadilə, xarakterindəki inadkarlıq, aydın məqsədyönlülük, əksinə, onun iradəsini daha da mətinləşdirmiş, ömür yolunda addımlarını daha inamla atmışdır. Əlbəttə, dünya yaxşılardan xali deyil. Həyatda qarşısına çıxan işıqlı insanların orbitində uğurlu bir elm yolu tutmuşdur. Bu insanları, onların dəyərli məsləhətlərini Teymur müəllim kitablarında ehtiramla yad edir. T. Bünyadov 1955-2012-ci illərdə yazdığı mindən çox monoqrafiya, kitab, elmi-publisistik məqalə ilə milli etnoqrafiya elmində özünəməxsus elmi dəsti-xətt formalaşdırmışdır.
*II aparıcı:* Yorulmaz tədqiqatçı, xeyirxah insan, yenilikçi alim, respublika pedaqoji ictimaiyyəti arasında dərin hörmət qazanmış, mənalı ömrünü gənc nəslin təlim-tərbiyəsinə həsr etməklə kifayətlənməmiş, gərgin əməyi və elmi fəaliyyəti ilə pedaqogika elminin inkişafına  yeni töhfələr vermişdir. Öz həyat kredosunu insanlara yaxşılıq etməkdə görən akademik Teymur Bünyadov şüurlu həyatını millətimizin gələcəyi olan gənclərə həsr edərək Azərbaycan təhsilinin inkişafını ləyaqətlə yüksəklərdə qaldırmaq istiqamətində səmərəli fəaliyyətini davam etdirir.
*I aparıcı:* Yazdığı əsərləri, həyata keçirdiyi ideyaları, həyatı boyunca dözdüyü əzab-əziyyətləri sayəsində şan-şöhrət qazanmış müqəddəs Azərbaycanımızın şərəfini uca zirvələrə qaldırmış nadir şəxsiyyətlərlə xalqımız həmişə fəxr edir. Teymur Bünyadovun yarım əsrdən çox elmi yaradıcılığını təhlil etdikcə, Azərbaycan elmində nəhəng və yeni bir yolun əsasının qoyulduğunu aydın şəkildə görürsən. Onun hər bir əsəri, monoqrafiyası, kitabı, çıxışı tədqiqata cəlb edilməli, geniş şəkildə araşdırılmalıdır. Çünki onun əsərlərində Azərbaycanın qədim tarixi, arxeologiyası, etnoqrafiyası, eləcə də Teymur

Bünyadovun özünün görə-görə, gələ-gələ yazdıqları əksini tapır. Bir əsərin üzərində xüsusi olaraq, dayanmaq istəyirik. XX əsrin ortalarında, Azərbaycanın tarixi, arxeologiyası, etnoqrafiyası inkar ediləndə Teymur Bünyadov 1955-ci ildə "Tunc dövründə Azərbaycanda əkinçilik və maldarlıq" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edərək, tarix elmlər namizədi alimlik dərəcəsi adını almışdır.

1957-ci ildə onun "Tunc dövründə Azərbaycanda əkinçilik və maldarlıq" monoqrafiyasının rus dilində çap olunması Azərbaycan elmində inqilabi bir addım idi.

*II aparıcı:* Teymur müəllimin 1960-cı ildə nəşr edilən "Azərbaycan arxeologiyası oçerkləri" bu gün də müxtəlif elm sahəsi mütəxəssislərinin, o cümlədən arxeoloqların stolüstü kitabıdır. Teymur müəllimin 1964-cü ildə çap olunan "Azərbaycanda əkinçiliyin inkişaf tarixinə dair", 1969-cu ildə işıq üzü görən "Azərbaycanda maldarlığın inkişaf tarixindən" monoqrafiyaları Azərbaycan etnoqrafiya elminin möhtəşəm özülləri sayılır. Bu əsərlər keçmiş SSRİ zamanında böyük əks-səda doğurmuş, Teymur Bünyadovun gəldiyi nəticələr o dövrdə çap olunmuş, etnoqrafiyaya dair ümumittifaq səviyyəli dərsliklərdə də əksini tapmışdır. Müxtəlif millətlərdən olan böyük bir etnoqraf nəsli Teymur Bünyadovun tədqiqatlarını, gəldiyi nəticələri öyrənmişdir. Həmin nəticələrdə isə Azərbaycan xalqının qədim və yüksək mədəniyyəti, inkişaf yolu əksini tapır. Ömrünü elmi fəaliyyətə həsr etmiş T.Ə.Bünyadov bədii yaradıcılıqla da məşğul olmuş, onlarla hekayəsini oxuculara təqdim etmişdir.

*I aparıcı:* Akademik Teymur Bünyadov çox böyük və bir o qədər də yaradıcı həyat yolu keçmişdir. O, Azərbaycandan kənarda, o cümlədən Qafqazda, Şərq ölkələrində, xüsusən də əski Sovetlər Birliyinin ayrı-ayrı bölgələrində, dünyanın məşhur elm və təhsil mərkəzlərində görkəmli tarixçi alim kimi çox yaxşı tanıyırlar və həmkarları arasında onun həqiqətən böyük nüfuzu var. Teymur müəllim olduqca sadə, səmimi, mehriban, istiqanlı

bir insandır. Özündən yaş, vəzifə, elmi dərəcə və təcrübə baxımdan aşağı olan insanlara qarşı xüsusilə həssas və qayğıkeş olması ilə fərqlənir. O, bütün titulları ilə yanaşı, bəlkə də, onların hamısından daha öncə ömrünün müdrik çağlarını yaşamaqda olan görkəmli xalqşünas alimdir. Onun öz tədqiqatlarında, yaxud da rəhbərliyi ilə aparılan tədqiqatlarda Azərbaycan ailəsinin ənənələri, mənəvi-psixoloji və mədəni-məşiət problemləri elmi-nəzəri cəhətdən araşdırılaraq, öyrənilərək geniş ictimaiyyətə təqdim olunub.

*II aparıcı:* Ömrünün bu müdrik çağında bir gənclik şövqü ilə zəhmətdən yorulmayan, elmi və bədii yaradıcılıq işlərini davam etdirən, şəxsiyyətinə dərin hörmət bəslədiyimiz səmimi insan, görkəmli alim Teymur Bünyadovun gördüyü bu işlər bizim gözümüzdə ən müqəddəs işdir. Mənəvi mədəniyyətin aşınmağa meyilləndiyi, maddi mədəniyyətin sürətlə dəyişdiyi dünyada Teymur Bünyadov özünün geniş spektrli yaradıcılığı ilə milli ruhumuzun istinadgahını yaratmış, bizi qürurlandırmışdır. Bu istinadgah Azərbaycan xalqını özünə tanıdır, millətimizdə keçmişə hörmət, rəğbət və gələcəyə inam hissi oyadır. Qarşıdan gələn 90 illik yubileyi münasibəti ilə akademik Teymur Bünyadovu ürəkdən təbrik edirik, ona uzun ömür, can sağlığı arzulayırıq.

## Ədəbiyyat siyahısı


***Əsərləri kitablarda***

***Latın Əlifbası ilə***

Qız var oğuldan qeyrətli. - Bakı : MBM, 2012. - 32 s. - Ədəbiyyat: s. 31.

***Kiril əlifbası ilə***

Qızıl qaya. - Bakı, 1984. - 204, [1] s. . - (cildli)

Ana kürüm. - Bakı : Gənclik, 1979. - 180 s.

Azərbaycan arxeologiyası oçerkləri. - Bakı : Azərnəşr, 1960. - 238 s.

Əsrlərdən gələn səslər. - Bakı : Azərnəşr, 1993. - 264 s.

Göz yaşları : Roman. - Bakı : Yazıçı, 1991. - 416 s.

***Əsərləri mətbuatda***

Ay nəğməkar bəstəkar : Ramiz Mirişlinin xatirəsinə // Xalq qəzeti. - 2016. - 20 aprel. - **№ 83**. - S. 6.

Azərbaycanın milli məfkurəli tarixçisi : Yaqub Mahmudov - 75 // Azərbaycan. - 2014. - 6 fevral. - **№ 25**. - S. 7.

Bahar təravətli səsin sehri : xanəndə Canəli Əkbərovun 70 illik yubileyi // Mədəniyyət. - 2010. - 23 aprel. - **№ 25**. - S. 12.

Dünyaya bir də gəlməz... : şərqşünas, ədəbiyyatşünas, tərcüməçi Aida İmanquliyeva haqqında // Ədəbiyyat qəzeti. - 2014. - 10 oktyabr. - **№ 39**. - S. 4.

Gürzə: hekayə // Azərbaycan. - 2006. - **№ 2**. - S.138-141.

Həqiqətmi, əfsanəmi, nağılmı.. : istirahət zonası sayılan Qəbələ haqqında // Xalq qəzeti. - 2011. - 12 iyul. - **№ 149**. - S. 5.

Həyatın dibindən elmin zirvəsinə ucalmış ziyalı : [akademik Teymur Bünyadovla müsahibə / söhbətləşdi Ə. Bayramov] // Xalq qəzeti. - 2016. - 10 iyul. - **№ 146**. - S. 6.

Qayasında, qalasında tarix yaşar : Qəbələ haqqında// Mədəniyyət. - 2011. - 20. 07. - **№ 52**. - S. 12.

Qazax Müəllimlər Seminariyasının yaradılması : Firidun bəy Köçərli – 150 // Mədəniyyət. - 2013. - 21 avqust. - **№ 58**. - S. 12, 13.

Qəribə taleli... : Davud Nəsib haqqında // Ədəbiyyat qəzeti. - 2014. - 14 fevral. - **№ 6**. - S. 7.

Mənalı ömrün anları : akademik, iqtisadçı Əhməd Mahmudov haqqında // Xalq qəzeti. - 2010. - 23 may. - **№ 111**. - S. 7.

Məşəl // Savalan. - 2012. - 2 - 4 oktyabr. - **№ 70**. - S. 3.

Məşəl : görkəmli Azərbaycan maarifçisi, pedaqoq, metodist, ədəbiyyatşünas, publisist Firidun bəy Köçərli haqqında // Savalan. - 2015. - 14-27 iyul. - **№ 47/48**. - S. 3.

Muğamlarımız həqiqətmi, möcüzəmi, nağılmı?!. // Yeni Mədəni-maarif jurnalı. - 2008. - **№ 8**. - S. 43-46.
Novruz bayramının tarixi kökləri // Ədəbiyyat qəzeti. - 2014. - 20 mart. - **№ 11**. - S. 6.

On ikinci Şeyxülislam : Şeyxülislam Allahşükür Paşazadə - 65 // Xalq qəzeti. - 2014. - 26 avqust. - **№ 183**. - S. 3.

Parlaq istedad, böyük ürək sahibi : torpaqşünas alim Muxtar Abduyev haqqında // Xalq qəzeti. - 2012. - 17 iyun. - **№ 132**. - S. 6.

Parlaq zəka sahibi – böyük vətəndaş : Vasim Məmmədəliyev // Respublika. - 2012. - 28 avqust. - **№ 190**. - S. 3.

***Haqqında mətbuatda***

**Teymur Bünyadov** – 85 // Ədəbiyyat qəzeti. - 2013. - 1 fevral. - **№ 4**. - S. 5.

**Abdulla K.** Böyük etnoqraf – tarixçi alim : Teymur Bünyadov - 85 // Xalq qəzeti. - 2013. - 10 fevral. - **№ 31**. - S. 7.

**Cəbiyev Q.** Arxeologiya və etnoqrafiya elmimizin ağsaqqalı : Akademik Teymur Bünyadov – 85 // Xalq qəzeti. - 2014. - 7 fevral. - **№ 26**. - S. 5.

**Əhmədli S.** Səmimiyyət timsalı : Teymur Bünyadov – 85 // Ədəbiyyat qəzeti. - 2013. - 1 fevral. - **№ 4**. - S. 5.

**Kərimov M.** İctimai xadim, tarixçi etnoqraf : Teymur Bünyadov haqqında // Respublika. - 2008. - 24 yanvar. - S. 5.

**Nadirov A.** Etnoqrafiya sahəsində dəyərli araşdırmalar müəllifi : Teymur Bünyadov haqqında // Azərbaycan. - 2008. - 23 yanvar. - S. 7.

**Paşayev Q.** Görkəmli alim, nüfuzlu ziyalı : Teymur Bünyadov – 85 // Ədəbiyyat qəzeti. - 2013. - 1 fevral. - **№ 4**. - S. 5.

# Tarix yazan akademik – Teymur Bünyadov
**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 6
Çapa imzalanmışdır:9.01.2018
Tirajı:100
Pulsuz